# COP29 qlobal enerji keçidi prosesində Azərbaycanın rolunu nümayiş etdirən platforma olacaq

Azərbaycanın energetika naziri Pərviz Şahbazov BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibi Saymon Stil ilə görüşüb.




Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə bağlı hazırlıq işləri, ölkəmizin bu beynəlxalq tədbirə sədrliyindən irəli gələn məsələlər, eləcə də Azərbaycanın "yaşıl enerji" keçidi üzrə fəaliyyəti müzakirə edilib.

Energetika naziri ənənəvi enerji ölkəsi Azərbaycanın bərpaolunan enerjinin istehsalçısı və ixracatçısına transformasiyası istiqamətində həyata keçirilən islahatlar, "yaşıl enerji"dən geniş istifadəni, elektroenergetika sektorunun müasir tendensiyalara uyğun inkişafını, enerji səmərəliliyini təmin edən yeni qanunlar, enerji sisteminə 2027-ci ilədək 2 qiqavatadək "yaşıl güc"lərin inteqrasiyası, həmçinin Xəzərdən Avropaya uzanan "yaşıl enerji" dəhlizinin reallaşdırılması planları və görülən işlər barədə ətraflı məlumat verib. Ölkəmizin COP28 tədbirində bir sıra qlobal təşəbbüslərə qoşulduğunu qeyd edən nazir bildirib ki, Azərbaycan COP29-a sədrliyi dövründə "yaşıl inkişaf"la bağlı kursunun icrasını davam etdirməklə və dekarbonizasiyanı sürətləndirməklə yanaşı, qlobal miqyasda iqlim dəyişikliyinə qarşı mübarizəyə töhfələrini artırmağı hədəfləyir. COP29 qlobal enerji keçidi prosesində Azərbaycanın rolunu nümayiş etdirən platforma olacaqdır.

İcraçı katib Saymon Stil COP29 tədbirinin təşkili, həmçinin enerji və ətraf mühit aspektlərində diqqət yetirilməli məsələlərlə bağlı fikirlərini bölüşüb, sıx əməkdaşlıq edilməklə katibliyin prosesə dəstəyini ifadə edib. Saymon Stil Azərbaycanın bir çox beynəlxalq tədbirlərə evsahibliyi təcrübəsinin COP29-un da uğurla keçirilməsinə töhfə verəcəyini bildirib.

Söhbət zamanı COP29 tədbirinin enerji istiqaməti üzrə birgə seminarın keçirilməsi razılaşdırılıb.

Azərbaycan.- 2024.- 3 fevral, № 23.- S.3.